# YUBİLEYLƏR

## FƏRMAN XƏLİLOV – 70



Fərman Yunis oğlu Xəlilov 31 mart 1952-ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini bitirdikdən sonra 1969-1973-cü illərdə Akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsində təhsil almışdır. Tələbəlik illərində institutun Tələbə Elmi Cəmiyyətinin fəal üzvlərindən biri olmuşdur.

Əmək fəaliyyətinə 1973-cü ildə Culfa rayonunun Milax kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kini başlamış, bir illik hərbi xidmətdən sonra Naxçıvan şəhərindəki H.Cavid adına 5 nömrəli orta məktəbdə (1975-1996) və Naxçıvan Türk Liseyində (1992-2004) həmin fənlərin tədrisi ilə məşğul olmuşdur. Qabaqcıl iş təcrübəsi Naxçıvan Muxtar Respublikasının bütün orta məktəblərində yayılmış, 1985-ci ildə metodist-müəllim adına layiq görülmüşdür. 1993-2004-cü illərdə Naxçıvan Muxtar Respublikasında test üsulu ilə sınaq imtahanlarının təşkili və keçirilməsində fəal iştirak etmişdir. 1976-1980-cı illərdə Azərbaycan SSR Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan şöbəsinin dissertantı olmuş, 1982-ci ilə xalq yazıçısı, akademik Mirzə İbrahimovun rəhbərliyi ilə "Mirzə Əli Möcüzün yaradıcılıq yolu" mövzusunda namizədlik, müstəqillik illərində isə Türkiyə, İran və digər xarici ölkələrin arxiv və kitabxana materiallarından istifadə edərək "Mirzə Əli Möcüz: mühiti, müasirləri və ədəbi irsi" adlı doktorluq dissertasiyası müdafiə etmişdir. Alim 2013-cü ildə müsabiqə yolu ilə AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun ədəbiyyatşünaslıq şöbəsinə müdir vəzifəsinə seçilmiş, 2016-cı ildən bu günədək isə həmin bölmənin Əlyazmalar Fondunun baş direktorudur. 2017-ci ildə dosent elmi adını almışdır.

Bu günədək 20-yə yaxın kitab və monoqrafiyanın, Azərbaycan, Türkiyə, İran, Qazaxıstan, Kanada və Rusiyanın elmi jurnallarında dərc edilən 200-dək məqalənin müəllifi olan F.Xəlilovun elmi yaradıcılığı iki mühüm istiqaməti əhatə edir. Birinci istiqaməti Cənubi Azərbaycan ədəbiyyatı, xüsusilə XX əsr Azərbaycan satirik poeziyasının görkəmli nümayəndəsi Mirzə Əli Möcüzün tədqiqi təşkil edir. Alimin müxtəlif illərdə mətbuat vasitəsilə Cənubi Azərbaycan şairlərinin şeirlərini şimallı oxuculara çatdırmaqda, "Məşrutə dövrü ədəbiyyatı", "Nəşri gözlənilən kitab", "Təbriz görüşləri", "M.Ə.Sabirin cənubu azərbaycanlı müasirləri", "Qulam Məmmədlinin Cənubi Azərbaycan möcüzşünası Məmmədəli Niqabiyə məktubları" və başqa məqalələrində oxuculara o taylı ədəbiyyatımızın bəzi məsələləri ilə bağlı məlumatlar verməkdə müəyyən xidmətləri olmuşdur. 1983-cü ildə çap olunan "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nın ikinci cildinin tərtibçilərindən biri olması da F.Xəlilovun bu sahədəki xidmətlərindəndir. Ədəbiyyatşünas alimin bir-birinin ardınca işıq üzü görən "Mirzə Əli Möcüz (biblioqrafiya)" (2007), "Mirzə Əli Möcüzün əlyazmaları" (2008), "Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüz" (2010) kimi kitab və monoqrafiyaları

isə möcüzşünaslığı yeni fakt və mülahizələrlə zənginləşdirmişdir. "Cənubi Azərbaycan ədəbiyyatı tarixi" (II cild, 2013) və "Azərbaycan ədəbiyyatı tarixi" (IX cild, 2022) kitablarındakı M.Ə.Möcüzə həsr olunan elmi oçerklərin müəllifi də F.Xəlilovdur.

F.Xəlilovun tədqiqatlarının ikinci istiqaməti Naxçıvanla bağlıdır. Onun indiyədək ərsəyə gətirdiyi çoxsaylı elmi əsərləri naxçıvanşünaslığa dəyərli töhfələrdir. Bu baxımdan alimin Naxçıvanın elmi və ədəbi mühitinin məşhur yetirmələrindən olan Hüseyn Nadim Naxçıvani, Məmmədtağı Sidqi, Cəlil Məmmədquluzadə, Əliqulu Qəmküsar, Eynəli bəy Sultanov, Hüseyn Cavid, Seyid Səbri, Hüseyn Razi, Müzəffər Nəsirli, Məmməd Araz, Şamil Qazıyev, Həsən bəy Qazıyev, Mirbağır Mirheydərzadə, Əziz Şərif, Məmmədcəfər Cəfərov, Məmmədhüseyn Təhmasib və digər görkəmli şəxsiyyətlərin ömür və yaradıcılıq yolunun müxtəlif istiqamətləri ilə bağlı apardığı tədqiqatlar, dəqiqləşdirdiyi faktlar, istinad etdiyi şəxsi və dövlət arxiv materialları onun tədqiqatçılıq bacarığından xəbər verir. F.Xəlilovun "Naxçıvanı öyrənən elmi cəmiyyət" (2005), "Naxçıvan teatrı. Məqalələr, xatirələr" (2014), "Elmi ənənələrdən yüksəlişə doğru: Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu" (2014), "Hüseyn Razi (biblioqrafiya)" (2015), "Maarif fədaisi: Həsən bəy Qazıyev" (2016), "Naxçıvan ədəbi mühitinin yetirməsi: Seyid Səbri" (2018), "Farsdilli əlyazmalar və əski çap kitabları kataloqu" (2018), "Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Əlyazmalar Fondu" (2019), "Türkdilli əlyazma və çap kitablarının kataloqu" (2020), "Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər" adlı üçcildlik (2017, 2019, 2021) və nəhayət, "Şərq qapısı" qəzetinin nəşri tarixinin ilk mərhələsi və yeni ədəbi mühitin formalaşmasında rolu" (2022) naxçıvanşünaslığa bəxş etdiyi dəyərli kitab və monoqrafiyalardır.

F.Xəlilovun araşdırmaları onun həm də səriştəli bir əlyazmaşünas və mətnşünas olduğunu nümayiş etdirir.

2022-ci ilin mart ayında zəhmətkeş, yorulmaz və məhsuldar alim, filologiya elmləri doktoru Fərman Xəlilovun 70 yaşı tamam olmuşdur. Bu münasibətlə həmkarımızı təbrik edir, ona uzun ömür, can sağlığı və yeni-yeni elmi nailiyyətlər arzulayırıq.

**Əbülfəz Quliyev**
*AMEA-nın müxbir üzvü,*
*filologiya üzrə elmlər doktoru, professor*